# AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

## ƏMR

№ Ü-066

**Bakı şəhəri** "17" oktyabr 2018 il

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin siyahısının təsdiq edilməsi haqqında**

"İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanının 5-ci hissəsini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 1-ci hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı təsdiq edilsin **(əlavə olunur)**.

**2.** Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin səlahiyyətlərinə aid məsələlər üzrə inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan bu əmrin 1-ci hissəsi ilə təsdiq edilmiş Siyahıda göstərilən vəzifəli şəxslərə tapşırılsın ki, inzibati xəta haqqında iş üzrə qərarın qüvvəyə mindiyi gün Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 45.2-ci maddəsində göstərilən məlumatların informasiya ehtiyatına daxil edilməsini təmin etsinlər.

**3.** Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsi **(Mansur Piriyev):**

**3.1.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 45.1-ci maddəsinə əsasən Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyət istiqamətləri ilə bağlı səlahiyyətli vəzifəli şəxslərin baxdığı inzibati xətalar haqqında işlər barədə elektron informasiya sisteminin (ehtiyatının) yaradılmasını və həmin informasiya ehtiyatının fəaliyyətini təmin etsin;

**3.2.** bu əmrlə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlər üzrə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısını Agentliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin;

**4.** Hüquq, kadr və icraya nəzarət şöbəsi **(Xudayət Həsənli)** bu əmrin surətinin Agentliyin Aparatının aidiyyəti şöbələrinə və regional bölmələrinə çatdırılmasını təmin etsin.

**5.** Bu əmrin icrasına nəzarəti müəyyən edilmiş vəzifə bölgüsünə uyğun olaraq sədr müavinləri **Rüfət Rüstəmzadəyə**, **Rəşad Mafusova** və **Balarəhim Quliyevə** həvalə edilsin.

**Əsas:** "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanının 5-ci hissəsi.

**Sədr** **Qoşqar Təhməzli**

*Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədrinin 2018-ci il "17" oktyabr tarixli "İ-066" nömrəli əmri ilə təsdiq edilmişdir*

**Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 1-ci hissəsinə və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının 5.6-1-ci, 5.8-ci və 5.44-1-ci bəndlərinə uyğun olaraq Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı**

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından inzibati xətalar haqqında işlərə aşağıdakı vəzifəli şəxslər tərəfindən baxılır:

**1.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra-**Məcəllə**) 219-cu, 220-ci, 222-ci, 428.1-ci, 428.4-cü, 444-cü, 447.0.1-447.0.6-cı, 447.0.9-cu, 453-cü və 544.2-ci maddələri üzrə Qida Təhlükəsizliyi Agentliyinin səlahiyyətlərinə aid edilmiş məsələlər ilə bağlı inzibati xətalar haqqında işlərə:

Qida Təhlükəsizliyi Agentliyinin sədri;
Sədr müavini;
Aparatın rəhbəri;
Qida təhlükəsizliyi şöbəsinin müdiri və onun müavini;
Qida təhlükəsizliyi şöbəsinin sektor müdiri;
Qida təhlükəsizliyi şöbəsinin baş məsləhətçisi;
Qida təhlükəsizliyi şöbəsinin böyük məsləhətçisi;
Qida təhlükəsizliyi şöbəsinin aparıcı məsləhətçisi;
Qida təhlükəsizliyi şöbəsinin məsləhətçisi;
Bitki sağlamlığı və fitosanitar nəzarəti şöbəsinin müdiri və onun müavini;
Bitki sağlamlığı və fitosanitar nəzarəti şöbəsinin sektor müdiri;
Bitki sağlamlığı və fitosanitar nəzarəti şöbəsinin baş məsləhətçisi;
Bitki sağlamlığı və fitosanitar nəzarəti şöbəsinin böyük məsləhətçisi;
Bitki sağlamlığı və fitosanitar nəzarəti şöbəsinin aparıcı məsləhətçisi;
Bitki sağlamlığı və fitosanitar nəzarəti şöbəsinin məsləhətçisi;
Heyvan sağlamlığı və baytarlıq nəzarəti şöbəsinin müdiri və onun müavini;
Heyvan sağlamlığı və baytarlıq nəzarəti şöbəsinin sektor müdiri;
Heyvan sağlamlığı və baytarlıq nəzarəti şöbəsinin baş məsləhətçisi:
Heyvan sağlamlığı və baytarlıq nəzarəti şöbəsinin böyük məsləhətçisi;
Heyvan sağlamlığı və baytarlıq nəzarəti şöbəsinin aparıcı məsləhətçisi;
Heyvan sağlamlığı və baytarlıq nəzarəti şöbəsinin məsləhətçisi;
Agentliyin regional bölmələrinin rəhbərləri və onların müavinləri.

**2.** Məcəllənin 213.0.1-ci, 213.0.2-ci, 213.0.4-cü və 225.1-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 1-ci hissəsinə və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının 5.6-1-ci bəndinə uyğun olaraq inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin adından bu Siyahının 1-ci hissəsində (Bitki sağlamlığı və fitosanitar nəzarəti və Heyvan sağlamlığı və baytarlıq nəzarəti şöbələri istisna olmaqla) göstərilən vəzifəli şəxslər.

**3.** Məcəllənin 288-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı ilə təsdiq

edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 1-ci hissəsinə və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının 5.6-1-ci bəndinə uyğun olaraq inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin adından bu Siyahının 1-ci hissəsində (Heyvan sağlamlığı və baytarlıq nəzarəti şöbəsi istisna olmaqla) göstərilən vəzifəli şəxslər.

**4.** Məcəllənin 289-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 1-ci hissəsinə və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının 5.6-1-ci bəndinə uyğun olaraq inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin adından bu Siyahının 1-ci hissəsində (Bitki sağlamlığı və fitosanitar nəzarəti şöbəsi istisna olmaqla) göstərilən vəzifəli şəxslər.